# Seçkilərdəki məğlubiyyət Makrona dərs olmalıdır

## Fransada əhalinin hakimiyyətdən narazılığı getdikcə daha da artır



**"Fransa kimi böyük tarixi olan bir ölkənin son illərdə bütün mənalarda deqredasiyaya uğraması, Makron hakimiyyətinin Fransanı nüfuzdan salması prosesi davam edir. Hər halda neokolonialist siyasət, soyqırımlar törətməsi və indi də özündən uzaq bölgələrdə yerləşən əraziləri müstəmləkə halında saxlaması Fransaya başucalığı gətirmir".**

Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar İskəndərov deyib. Deputat bildirib ki, Makron bütün bunları bilərək anti-Azərbaycan antitürk, islamofob siyasətini davam etdirir. Eyni anda ölkə daxilindəki problemlər, iqtisadi çətinliklər, siyasi isteblişmentdəki çatışmazlıqlar Fransada əhalinin Makron hakimiyyətindən narazılığını artırır və xalqla iqtidar arasında böyük boşluğun yaranmasını reallaşdırır.

"Avropa Parlamentinə keçirilmiş seçkilərdə Makron və onun partiyasının acı məğlubiyyəti bunun bariz nümunəsidir. Dəfələrlə söyləmişik ki, Makron bunları düşünməlidir. Öz ölkəsinin daxili problemlərini kənara qoyub Cənubi Qafqaza soxulmaq cəhdləri, anti-Azərbaycan siyasəti, ağa qara söyləməsi təbii olaraq özlərinin başında çatlamalı idi və bu da baş verdi. Makron tam çarəsiz bir durumda parlamenti buraxmağa məcbur oldu. Təbii ki, bu da riskli addımdır, amma onun başqa yolu qalmadı. O, bununla seçkilərə qədər hər hansı revanş götürmək, yeni ideyalar irəli sürərək parlament seçkilərində məğlubiyyətin əvəzini çıxmağı arzulayır. Bununla bir az da olsa özünə təsəlli verməyə çalışır", - deyə deputat bildirib.

Makronun hakimiyyəti illərində hazırda Fransanın ən çətin vəziyyətdə olduğunu vurğulayan V.İskəndərov qeyd edib ki, bu gün eyni siyasət Almaniyada da baş verir və iqtidar partiyalarının seçkidə acı məğlubiyyəti onların liderlərinin siyasətinin nəticəsidir. Fransa hakimiyyəti, Makron artıq anlamalıdır ki, yeritdiyi siyasət yanlışdır. O, daha çox öz ölkəsinin işləri, problemləri ilə məşğul olmalı, çətin durumdan çıxmaq üçün real proqramlar irəli sürməli və əhalinin rəğbətini qazanmalıdır. Makronun özünü Azərbaycan-Ermənistan münasibətlərində, Cənubi Qafqaz siyasətində, Rusiya-Ukrayna müharibəsində və dünyada baş verən digər siyasi proseslərdə yeri gəldi, gəlmədi görmək arzusu onu çətin duruma salıb.

Deputat bildirib ki, seçkilərdəki məğlubiyyət Makron üçün bir dərsdir və onun partiyasının bu çətin vəziyyətdən çıxacağına şübhələr var. Bu, Makron siyasətinin acı, reallığa söykənən sonudur.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.-13 iyun, №124.-S.6.